**◆ Müəllifi İlham Əliyevdir**

*Qarabağa gedirik...*

*Azərbaycan əsgərinin tariximizin ən şanlı səhifəsini yazdığı, can verib, can aldığı, qanı ilə torpağını suvardığı Talış kəndinədir yolumuz...*

*Üç il öncə bu yollarla qəhrəman oğullarımız düşmənin "keçilməz" adlandırdığı istehkamları yara-yara həsrətin bitdiyi, ərazisini qızıl qanları ilə yuduqları Suqovuşana yetişmişdilər. Elə o gündən bu yurd yeri Şanlı Zəfərimizin ilk müjdəsi kimi yaddaşlara həkk olunub. Bu gün isə Suqovuşan vaxtı ilə susuzluqdan yanan torpaqlarımıza həyat verərək onu nurlandırır. Bəlkə də, şəhid ruhlarıdır bu torpağı belə nurlandıran. Bəlkə də, şəhid qanı, Vətən sevgisi ilə boyananda belə nurlu olur torpaq...*

*Suqovuşanı keçib dağların arası ilə uzanan asfalt yolla Talışa yetişirik. Yüksəkliklər arasında salınan yeni Talış səhər erkən mürgülü-mürgülü qarşılayır bizi. Kəndin girəcəyində "Talış kəndi" yazılan lövhəni görməsəydik, möcüzəli bir adaya düşdüyümüzə qətiyyən şübhə etməzdik...*

# "İlham Əliyev bizə yeni həyat verdi"



## Talış kəndinin əzəli sakinləri onlar üçün cənnət yaradan Prezidentə alqış edirlər



*"Köçkünlük həyatı yaşadığım illərdə çox sıxıntılar çəkmişdim. İndi isə qürurluyam. Qarabağın xilaskarı, xoşbəxtliyimizin səbəbkarı mənim evimdə qonağım olub. Allah Prezidentimizi bizə çox görməsin. Prezidentimiz arxamızda duran əzəmətli dağ kimi qüdrətlidir. Onun hünəri hesabına burada olduğumuzu bir dəqiqə belə olsun, yaddan çıxarmırıq".*

### Qədim Talış kəndinin strateji əhəmiyyəti

Talış kəndi Azərbaycanın qədim yaşayış məskənlərindəndir. Tarixi mənbələrdə Talış kəndinin XVIII-XIX əsrlərdə mövcud olmuş Gülüstan məlikliyinin mərkəzi olması haqqında məlumatlar var. 1813-cü ildə Rusiya tərəfindən ilhaq edilən Talış kəndi Səfəvilər dövründə Qarabağ bəylərbəyliyinin, ardınca isə Qarabağ xanlığının tərkibində olub.

Goranboyun və Tərtərin birləşmə nöqtəsində yerləşən Talış kəndi əvvəllər keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətində Ağdərə rayonunun inzibati ərazisinə aid idi. 1992-ci ildə Ağdərə rayonu ləğv edilərək ərazisi qonşu Ağdam, Tərtər və Kəlbəcər rayonları arasında bölüşdürülüb, Talış kəndi isə Tərtər rayonuna verilib.

Tezliklə Talış yeni yaradılacaq Ağdərə rayonuna məxsus olacaq. Prezident İlham Əliyevin imzası ilə Ağdərə rayonunun yaradılması ilə bağlı qanun layihəsi Milli Məclisin müzakirəsinə təqdim edilib.

Dağların sinəsinə sığınmış Talış kəndi bu gün İlham Əliyevin xüsusi diqqəti altında yenidən qurulur. Amma kəndə kənardan baxdıqda erməni vandalizminin izlərini aydın şəkildə görmək olur. Otuz ildən çox erməni əsarətində qalan kənddə hayların törətdikləri vəhşiliyin, etnik nifrətin və azərbaycanlılara qarşı həqarətin həddi-hüdudu bilinmir, işğaldan sonra kənddə yaşasalar da, burada daşı daş üstünə qoymayıblar.

Mühüm strateji mövqedə yerləşən Talış kəndi 2020-ci ilin oktyabrında qəhrəman oğullarımız tərəfindən düşməndən təmizlənib. Talış kəndinin işğaldan azad edilməsi Qarabağdakı uğurlu əməliyyatlar arasında xüsusi yer tutur. Çünki Talış və Suqovuşan kəndlərinin azad edilməsi Silahlı Qüvvələrimizə çox böyük strateji üstünlük verib. Burada aparılan şiddətli döyüşlərdəki qələbəmiz tarixi zəfərimizə yol açıb. İlham Əliyev 2021-ci il oktyabrın 4-də Talış kəndindəki Bayraq meydanında bayrağımızı ucaldıb.

### Vətəndaşa dövlət qayğısının ən gözəl nümunəsi

Kəndi ikiyə bölən qənbər daşı döşənmiş geniş yol, müxtəlif dekorativ ağaclarla bəzədilmiş seyrəngahlar, xüsusi memarlıq üslubu ilə tikilmiş geniş və yaraşıqlı binalar, üstü qırmızı kirəmitli, cərgə ilə düzülmüş evlər təbiət gözəli olan Talışın ecazkarlığına rəng qatır. Bu gözəlliyi insan ağlının, vətən, yurd sevgisinin yaratdığı möcüzə də hesab etmək olar. Vətəndaşa dövlət qayğısının ən gözəl nümunəsi də...

Günün yenicə işıqlanmasına, səhərin təzə açılmasına baxmayaraq, kənddə bir hərəkətlilik hiss olunurdu. Maşınımızı Klub İcma Mərkəzinin yerləşdiyi binanın qarşısında saxlayıb, burada şirin-şirin söhbət edən adamlara yaxınlaşıb salamlaşırıq. Sakinlər jurnalist olduğumuzu biləndə maraqla bizi əhatəyə alırlar. Burada kimlər yox idi... Bakıdan, Sumqayıtdan, Gəncədən yaxınlarına baş çəkməyə gələn qonaqlar, kənd sakinləri, illərdir ev, yurd həsrəti çəkən keçmiş məcburi köçkünlər...

Hər ağızda bir dua, "şükür" var idi. İnsanlar Tanrıya şükür edir, bu gözəlliyi, vətəndaşlar üçün cənnət yaradan Prezidentə dua edir, bu alınmaz qalaları alıb Vətən edən şəhidlərimizə Allahdan rəhmət diləyirdilər. Ordunu qələbəyə aparan Müzəffər Ali Baş Komandanın ünvanına xoş sözlər söyləyirdilər: "O, əsl xilaskardır", "Qarabağı işğaldan, bizi köçkünlük həyatından Prezidentimiz qurtardı", "Tarixi abidələrimizi tamamilə dağılıb məhv olmaqdan, təhqir olunan məscidlərimizi həqarətdən, xalqımızın üstündəki "məğlub", "qorxaq" ləkəsindən xilas edib bizi ev-eşik sahibi edən xilaskar..."

### "Yaşlı görünməyimə baxmayın"

İlk qonağı olduğumuz Əyyub Əkbərov deyir ki, artıq yeni evində özünü cənnətdə hiss edir. Dövlət başçısı Talışa səfər edərkən Əyyub kişinin evində qonaq olub, xeyli söhbətləşiblər: "Bir gün yatsam da, yuxuma girməzdi ki, gün gələcək Talışa qayıdacam və Prezident, birinci xanım Mehriban Əliyeva evimizdə qonaq olacaq. Bu, həyatımızın ən yaddaqalan anı oldu".

Əyyub kişi deyir: "Yaşlı görünməyimə baxmayın, mənim cəmi 3 yaşım var. Allah yerdə qalan illəri, yersiz-yurdsuz olduğumuz, "qaçqın", "köçkün" damğası ilə yaşadığım o illəri ömrümüzdən hesab etməsin. Çəkdiyimiz müsibətlər bir yana, bu illərin utancı, xəcaləti bizə bəs idi. Keçmişi xatırlayanda dəhşətə gəlirəm. 1993-cü ildə ümidimiz hər yerdən üzülmüşdü. Azərbaycandan yığışıb Ukraynaya getməyi planlaşdırırdıq. Ulu Öndər Heydər Əliyev hakimiyyətə gəlişi ilə bizə ümid, İlham Əliyev torpaqlarımızı qaytarmaqla bizə həyat verdi. Şükürlər olsun Allaha, bu gün burada, bu torpaqlardayıq. Bu gözəlliklər aləmində ömrümüzün ahıl çağlarını qayğısız, xoşbəxt yaşayırıq. Bunun üçün nə lazım idisə, göydə Allah, yerdə Prezidentimiz onu bizə verib. İndi mənim üçotaqlı evim, işim, ən başlıcası isə, bu gözəllikdə kəndim var. Öləndə doğma torpağımda qəbirə qoyulacam.

Köçkünlük həyatı yaşadığım illərdə çox sıxıntılar çəkmişdim. İndi isə qürurluyam. Qarabağın xilaskarı, xoşbəxtliyimizin səbəbkarı mənim evimdə qonağım olub. Allah Prezidentimizi bizə çox görməsin. Prezidentimiz arxamızda duran əzəmətli dağ kimi qüdrətlidir. Onun hünəri hesabına burada olduğumuzu bir dəqiqə belə olsun, yaddan çıxarmırıq".

### "İlham Əliyev sevincimizi, gülüşümüzü, xoşbəxtliyimizi bizə qaytardı"

Əyyub Əkbərovla söhbətimizi yekunlaşdırıb kəndin digər sakini Həsənxan İrzayevin evinə qonaq gedirik. Ev sahibi öncə bizə keşməkeşli taleyindən söhbət açaraq deyir ki, 1992-ci ildə Qırğızıstanın Oş vilayətindən Azərbaycana pənah gətirib. Bu torpaqlarda yenicə yurd-yuva qurarkən ermənilər kəndi işğal ediblər...

"Nabələd adam idim. Bir qızım, iki oğlum var idi. Uşaqlar körpə idilər. Kimin qapısını döyəcəyimizi bilmirdim. Birtəhər gedib çatdıq Gəncəyə... Köçkünlük həyatımızı Gəncədə keçirdik. Biz Oşdan Azərbaycana Vətən deyib gəlmişdik...

Oğlanlarım böyüdülər, ikisi də əsgər oldu. 2020-ci ildə Vətən savaşında iştirak etdilər. Sevinirəm ki, indi bizim yaşadığımız bu torpaqların azad olunmasında mənim oğlanlarımın da payı var".

Həsənxan İrzayev 2023-cü il martın 16-da Talış kəndinə yenidən qayıdıb. Bu tarix isə ömürlük yaddaşlarına həkk olunub: "Xilaskarımız, Prezident İlham Əliyev özü bizim kəndə gəlmişdi. Mehriban xanımla birlikdə kəndimizdə Novruz tonqalını alovlandırdılar. Tonqal yandıqca sanki canımdan illərin soyuğunu, ağrısını, acısını da çıxarırdı. Oğlanlarıma da ev verilib. Biz köçkünlük dövründə xoşbəxt, qayğısız yaşamağın nə olduğunu bilmirdik. Sağ olsun Prezidentimiz. Sevincimizi, gülüşümüzü, xoşbəxtliyimizi bizə qaytardı. Təkcə Qarabağı yox, bizi də dərddən xilas etdi".

### "Allaha şükür, köçkünün də evinə bayram gələrmiş"

Mehribanlığı, istiqanlılığı ilə seçilən Talış kənd sakini Telman Məmmədovla söhbəti onun dördotaqlı evində edirik. Telmanın övladları Aysunla Fuadın başı küknar ağacını bəzəməyə qarışmışdı. Kefləri kök idi. Evdə əsl bayram əhvali-ruhiyyəsi var idi...

Aysun deyir ki, həyatlarında ilk dəfədir ki, "yolka" bəzəyirlər: "Evimiz var idi ki, yolkamız da olaydı? Biz köçkün uşaqları idik. Novruz bayramında ilk dəfə bayram yumurtasını öz evimizdə boyadıq..."

Aysun əllərini göyə qaldırıb "Allaha şükür, bizim də evimizə bayram gələrmiş", - deyir.

Atası Telman isə sanki dünyaya yenidən gəldiklərini söyləyir: "Gülmək, sevinmək nə olduğunu indi-indi bilirik. Bayramlar necə gəlib, necə gedərdi, xəbərimiz olmazdı. Biz yalnız dua edəndə bilirdik ki, bu gün bayramdır. Onda da deyirdik ki, ya Rəbbim, sən bizi öz yurdumuza qaytar. Dövlətimizin başçısı bizim bütün arzularımızı yerinə yetirdi. İndi evimiz də var, doğma kəndimizdə işimiz də...

Dövlət yaşlı atama fərdi sahibkarlıqla məşğul olmaq üçün 3 baş inək verib. Südü, qatığı əməlli karımıza çatır. Hər gün evimdən çıxıb işə gedəndə ilk sözüm "Allaha şükür", ilk duam Prezidentimizə olur. İndiyə kimi atamın, mənim, qardaşımın evi yox idi. Lap açığını desək, nəslimizdə evi olan bir kişi yox idi. İndi hamımızın evi də var, işi də. Var olsun dövlətimiz. Sağ olsun bizi çətin günlərdən xilas edən Prezidentimiz".

### "İlham Əliyev bizi xəcalətdən qurtardı"

Evin ağsaqqalı dünya görmüş Xalis kişi deyir ki, ömrünün ahıl çağında bu qədər gözəl, xoşbəxt həyat yaşayacağını ağlından belə keçirməyib: "Ataların ən böyük arzusu övladlarını ev, ailə sahibi görməkdir. Ömür boyu xəcalət çəkirdim ki, bir ata kimi mən oğlanlarımı ev sahibi edə bilməmişəm. Mənim öz övladlarım üçün edə bilmədiyimi Prezidentimiz edərək məni ömürlük xəcalətdən qurtardı. Mən Prezidentimizə, Mehriban xanıma çox minnətdaram".







*"Xilaskarımız, Prezident İlham Əliyev özü bizim kəndə gəlmişdi. Mehriban xanımla birlikdə kəndimizdə Novruz tonqalını alovlandırdılar. Tonqal yandıqca sanki canımdan illərin soyuğunu, ağrısını, acısını da çıxarırdı. Oğlanlarıma da ev verilib. Biz köçkünlük dövründə xoşbəxt, qayğısız yaşamağın nə olduğunu bilmirdik. Sağ olsun Prezidentimiz. Sevincimizi, gülüşümüzü, xoşbəxtliyimizi bizə qaytardı. Təkcə Qarabağı yox, bizi də dərddən xilas etdi".*

Xalis kişi bizi digər oğlu Nərimanın da evinə dəvət edir: "Vallah, uşaq kimi sevinirəm. İstəyirəm hamı mənim oğlanlarımın evini görsün. Bu evləri mən özüm tikməsəm də, fərəhlənirəm".

Nəriman bizi gülərüzlə küçə qapısında, "köhnə dost" kimi mehribanlıqla qarşılayır. Deyir ki, Talışı tərk edəndə 3 yaşı vardı: "Biz çox uzağa getmədik. Tərtərin Bəyimsarov kəndində məskunlaşmışdıq. Həyatımız güllə səsi ilə keçdi. 2020-ci ilə kimi ermənilər, demək olar ki, hər gün atəşkəsi pozurdular. Övladlarım, Natəvanla Murad ermənilərin niyə belə etdiyini soruşanda cavab verə bilmirdim. 2020-ci ilin Vətən müharibəsindən sonra həyatımızın yeni dövrü başladı. 2023-cü ildə keçirilən lokal xarakterli antiterror tədbiri bu dağlara bir hüzur gətirdi. Çox şükür, indi xoşbəxt, qayğısız yaşayırıq".

Nəriman kənd xəstəxanasında sürücü işləyir. Deyir ki, indi xəstə çağırış edəndə arxayın gedirlər. Bilirlər ki, daha kimsə düşmən gülləsindən yaralanmayıb: "Evimiz, işimiz, hər şəraitimiz var. Bizə xəyal etmədiyimiz bu xoşbəxtliyi yaradan, bizi cənnətdə yaşadan Prezidentimizə minnətdarıq. Bir atanın övladı üçün edə bilmədiyini bizə edib. Sağ olsun".

### Talelərinə "köç" yazılan qocaların xoşbəxt günləri

Talış kəndinin ən yaşlı sakinləri Məhəmmədcan Həsənov və Zülfiyyə xanımdır. Məhəmmədcan kişi deyir ki, onların taleyinə sanki əbədi olaraq oradan-ora, buradan-bura köç etmək yazılıbmış: "Qırğızıstanın Oş vilayətinin Aravan rayonundan 1990-cı ildə bura pənah gətirmişdik. Buranı ermənilər işğal etdikdən sonra Tərtərin Bəyimsarov kəndinə köçdük. 2020-ci ildə top səsi, güllə səsi evimizin içində atılırmış kimi eşidilirdi. Zülfiyyəyə dedim ki, ölsəm də, burada öləcəm. Buradan gedə biləcəyim yer qəbirdir. Biz qəbri gözləyirdik, İlham Əliyev bizə cənnəti bəxş etdi. Mən buna Allahın sınağı da deyirəm. Səbirli olana Allah istədiyini verir... Ömrümüzün qürub etdiyi vaxt Prezidentimiz bizi məsud etdi. Talışda dördotaqlı ev verdi. Nəvələrimin, ailəmin qaçqınlıq həyatına son qoydu.

İndi ömrümüzün xoşbəxt günlərini yaşayırıq. Hər gün Allaha dua edirəm. Deyirəm, Allah, bizə bu bəxtəvərliyi yaşadan Prezidentimizi qoru!"

Talışda olarkən öyrəndik ki, kənd sakinlərinin əmək məşğulluğunun təminatı üçün də dövlətimiz tərəfindən hər cür tədbir görülüb. Burada işləməyən, təsərrüfat fəaliyyəti ilə məşğul olmayan kimsə yoxdur. Hər kəs bacarığına və peşəsinə uyğun işlə təmin edilib.

Buranın təbiəti, otlaqları, ormanları maldarlığın inkişafı üçün daha sərfəli olduğuna görə yaşlı nəsil heyvandarlıqla məşğul olur. İndi Talış kəndinin sakitliyini istirahət, əyləncə meydançalarında oynayan uşaqların şaqraq gülüşləri, oxuduqları şən mahnıları pozur. Burada üfüqlər də sakitdir. Göydə günəş, yerdə isə insanlar bu gözəlliyi görüb gülümsəyirlər.

Talış kəndi hər gün Bakıdan, respublikamızın müxtəlif guşələrindən görüşünə gələn insanlara "xoş gəldin" deyir.

Elə bu xoş ovqatla kəndi gəzməkdə davam edirik.

(Ardı var)

**Elşən QƏNİYEV,**
**Rəşad BAXŞƏLİYEV,**
**"Azərbaycan"**

*Bakı-Talış-Bakı*





